Azərbaycan Respublikası

Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,

üzvlər– N.F.Nəsibova, R.N.Hüseynəliyev

etiraz verən iddiaçı "MESSIKA GROUP" /ünvanı - 64 rue la Fayette, F-75009 PARIS (FR)/ nümayəndəsi patent müvəkkili X.N.Məmmədovanın,
"Patent və Əmtəə Nişanları Mərkəzi" publik hüquqi şəxsin nümayəndəsi şöbə müdiri N. Fəttahovanın iştirakları ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz ərizəsi üzrə işə baxaraq müəyyən etdi:

03.04.2018-ci il tarixdə "MESSIKA GROUP" (FR) məxsus DM/098 051 nömrəsi altında beynəlxalq qeydiyyatına alınmış sənaye nümunəsinə (boyunbağı, bilərzik, üzük, 11-01 sinifi üzrə üzük) dair "Patent və Əmtəə Nişanları Mərkəzi" publik hüquqi şəxsin imtina haqqında 15.11.2017 il tarixli qərarına qarşı iddiaçının nümayəndəsi X.N.Məmmədova tərəfindən Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsində qeyd edilir ki, ÜƏMT-nın Beynəlxalq Bürosu aşağıda göstərilən məhsullara: boyunbağı, bilərzik, üzük, 11-01 sinifi üzrə üzük münasibətdə sənaye nümunəsinin sahibi MESSİKA GROUP (FR) aid 08.09.2017-ci il tarixli DM/098 051 saylı beynəlxalq qeydiyyatı baxılması üçün Azərbaycan Respublikası "Patent və Əmtəə Nişanları Mərkəzi" publik hüquqi şəxsə göndərmişdir.

Həmin beynəlxalq qeydiyyat üzrə “Patent və Əmtəə Nişanları Mərkəzi” publik hüquqi şəxsə 11.11.17-ci il tarixində bəyan edilən 10-01 sinifindən olan mallara: “boyunbağı; bilərzik” münasibətdə yuxarıda qeyd edilən əmtəə nişanının qorunmasından imtina haqqında qərar qəbul etmişdir.

Həmin imtina “Patent haqqında” Azərbaycan Respublikasının Qanununu (bundan sonra - Qanun) üzrə yeniliyin mövcud olmaması əsasında verilmişdir, belə ki, 9.3 maddəsinə müvafiq olaraq “Sənaye nümunəsinin estetik və erqonomik xüsusiyyətlərini doğuran mühüm əlamətlərinin məcmusu (forma, konfiqurasiya, ornament və ya rənglərin quraşması) onun ilkinlik tarixinə qədər mühüm əlamətlərinin məcmusu mövcud bilgilərdən məlum deyildirsə, sənaye nümunəsi yeni hesab edilir.

Mövcud bilgilər məcmusuna iddia edilən sənaye nümunəsinin ilkinliyi tarixinə qədər eyni təyinatlı obyektlər və onların Azərbaycan Respublikasında tətbiqi barədə hamı üçün müyəssər olan məlumatlar aid edilir. Qanunun 29 maddəsinin 4-cü bəndinə müvafiq olaraq isə *“İddia sənədində göstərilən obyektin bu maddənin tələblərinə uyğun olmadığı ekspertiza nəticəsində müəyyənləşdirildikdə patent verilməsindən imtina barədə qərar qəbul edilir”.*

Ekspertiza yeniliyin mövcud olmamasını bununla əsaslandırır ki, “dizayn elementi – iddia edilən sənaye nümunələri “Boyunbağı” və “Bilərzik”dəki qaşlar yeni deyil, belə ki, həmin element digər iddiaçının sənaye dizaynında istifadə edilmişdir”. Bu 11-01 sinifindən olan məhsula: “boyunbağıya” münasibətdə Chemin du Tourbillon 8, CH-1228 Plan-les-Ouates (CH) ünvanında yerləşən sahibi “HARRY WINSTON SA.” (CH) adına olan 21.03.2017-ci il tarixli DM/095 429 saylı beynəlxalq qeydiyyatdır.

Sahibi 18.12.2017-ci il tarixində alınmış ÜƏMT-nın 15.12.2017-ci il tarixli məktubu ilə məlumatlandırılmışdır.

Ekpertizanın qərarı ilə tanış edildikdən sonra iddiaçı aşağıdakıları bildirir.

Boyunbağı halqa və ya zəncirlər şəklində hazırlanmış, qiymətli daşlar və çərçivədə muncuqlarla yerinə yetirilmiş boyun bəzəyini əks etdirir. Çərçivə qismində dekorativ furnitur və qiymətli və ya qiymətli olmayan metallardan təbəqələrdən istifadə edilir. Boyunbağların müxtəlif növləri var: elastik və ya sərt halqalı, bütöv və ya hissələrlə olanlar. Boyunbağılarda müxtəlif qaşlardan – ölçülərinə görə eyni və ya yaxın olan brilyant, mirvaridən, qiymətli və ya yarımqiymətli daşlardan istifadə edilir.

Qeyd etmək istərdik ki, ekspertizanın dizayn elementi – çənbərdə daş səbəbindən yeniliyin mövcud olmaması haqqında iradı yeganə əhəmiyyətli əlamət ola bilməz, belə ki, boyunbağı üçün əlamətlərin ümumi məcmusu halqanın şəklindən, zəncirin şəklindən, qaşlar üçün çərçivənin şəklindən, qaşların ölçüsündən, bağlamanın növü və ya onun mövcud olub-olmamasından, əlavə elementlərin, misal üçün kulonun və s. mövcud olub-olmamasından yaranacaqdır. Bu fərqlər zinət əşyalarının əsl şedevrlərini yaratmağa imkan verir.

İddia edilən boyunbağı bir neçə brilyant qaşı olan zəncir şəklində, bağlamanın sonluğunda “G” hərfinin mövcudluğu, brilyant qaşlı “G” hərfi şəklində kulonun fiksə edilmiş şəkildə quraşdırılması ilə yerinə yetirilmişdir. Ekspertizada dörd və iki brilyant daşlı, kulonun üfuqi və şaquli yerləşməsi ilə olan boyunbağılar göstərilmişdir.

DM/095 429 beynəlxalq qeydiyyatı üzrə üzləşdirilən boyunbağı ölçüsünə görə yaxın olan bir neçə müxtəlif , göründüyü kimi də müəyyən daşlardan yerinə yetirilmişdir.

Aydındır ki, iddia edilə boyunbağı və DM/095 429 beynəlxalq qeydiyyatı üzrə boyunbağı Qanunun 9.3 maddəsində göstərilən xüsusiyyətlər üzrə (forma, konfiqurasiya, bəzək və ya çalarlar) əhəmiyyətli fərqliliklərə malikdirlər.

**Bundan əlavə, qərarda səhv olaraq müqayisə edilən obyektin boyunbağı kimi göstərilməsini qeyd etmək lazımdır. Qərarda təsviri verilən üzləşdirmə obyekti boyunbağı deyil, çox güman ki, bilərzikdir, baxmayaraq ki, məmulatın bu növü DM/095 429 beynəlxalq qeydiyyatında göstərilməmişdir. Buna görə də bu dərəcədə müxtəlif cinsli olan predmetlərin müqayiəsini aparmaq məqsədəuyğun deyil.**

**Lakin iddiaçı göstərir ki, iddia edilən bilərzik sərt halqa şəklində yerinə yetirilmidir ki, onun sonluğu brilyant qaşlı “G” hərfi şəklində olan elementlə birləşir,**

**hansı ki, üzləşdirilən obyekt zəncir şəklində yerinə yetirilib və daxilində mərkəzdə yerləşən çoxguşəli ulduzlu halqaya malikdir, güman ki, daşla olan qaşı var.**

**Təqdim edilən təhlildən alınır ki. iddia edilən və üzləşdirilən bilərziklər Qanunun 9.3 maddəsində göstərilən xüsusiyyətlər üzrə (forma, konfiqurasiya, bəzək və ya çalarlar) əhəmiyyətli fərqliliklərə malikdirlər.**

Onunla əlaqədar olaraq ki, təhlil edilən obyektlər iki yekcins predmetlərin malik ola biləcəkləri tam oxşarlığa malik deyil, ekspertizanın iddia edilən obyektdə yenilin mövcud olmaması haqqında qənaəti hüquqa uyğun deyil.

Yuxarıda qeyd edilənlərdən çıxış edərək aydındır ki, DM/095 429 beynəlxalq qeydiyyatı üzrə obyekt DM/098 051 saylı iddia edilən obyektlə üzləşdirilə bilməz.

Bundan əlavə, qeyd etmək lazımdır ki, bir neçə brilyant qaşlar şəklində yerinə yetirilmiş digər boyunbağılar da mövcuddur, misal üçün, DM/080 345 beynəlxalq qeydiyyatı. Göstərilən boyunbağının xüsusiyyəti onun ikiqat hörmə ilə yerinə yetirilməsi, eləcə də daş üçün qaşın çiçək şəklində yerinə yetirilməsidir.

Beləliklə, iddiaçı göstərilən arqumentləri diqqətə almağı və DM/098 051 beynəlxalq qeydiyyatı üzrə imtina qərarını ləğv etməyi xahiş edir.

"Patent və Əmtəə Nişanları Mərkəzi" publik hüquqi şəxsin nümayəndəsi

N.Fəttahova qeyd etdi ki, iddia olunan DM/098 051 nömrəli variantlarla verilmiş beynəlxalq sənaye nümunəsinin xarici görünüşlərinin bədii konstruktor həlli tam həcmində baxılmışdır. Ekspertiza təqdim olunan sənaye nümunəsinin N1 və N2 variantlıarı üzrə "yenilik" meyarına uyğun olmaması haqqında qərar qəbul etmişdir. DM 095 429 nömrəli sənaye nümunəsi iddia olunan sənaye nümunəsinə qarşı qoyulmuşdur. Qarşı qoyulan DM 095 429 nömrəli sənaye nümunəsinin fotoşəkillər siyahısının 1.10 variantında məmulatın mühüm olan əlaməti sep üzərində cərcivəyə alınmış qaş elementi mühafizə edilmişdir. Bu element iddia olunan DM/ 098 051 nömrəli sənaye nümunəsinin N1 və N2 variantlarında olan sepli məmulatlarda istifadə olduğuna görə ekspertiza onların qeydiyyatını rədd etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən patent müvəkkili X.N.Məmmədovanın və "Patent və Əmtəə Nişanları Mərkəzi" publik hüquqi şəxsin nümayəndəsi N.Fəttahovanın mövqeyilərini nəzərə alaraq, hesab edir ki, etiraz təmin olunmalıdır.

**Apellyasiya şurası müəyyən etdi ki,** "MESSIKA GROUP" (FR) məxsus DM/098 051 nömrəsi altında sənaye nümunəsi **08.09.2017** il tarixində beynəlxalq qeydiyyata alınmışdır (Sənaye nümunələrinin beynəlxalq qeydiyyatı haqqında Haaqa Müqaviləsi). Qarşı qoyulmuş sənaye nümunəsi isə DM/095 429 nömrəsi altında **21.03.2017** il tarixində beynəlxalq qeydiyyata alınmışdır. Həmin qeydiyyatın **boyunbağı** və **bilərzik** (qolbaq) obyektləri üzrə "yenilik" meyarına uyğun olmaması haqqında 15.11.2017 il tarixli qərar qəbul edilmişdir.

"Patent haqqında" Azərbaycan Respublikası Qanunun 29-cu maddəsinin 6-cı bəndində, 38-ci maddəsinin 1-ci bəndənə və 9-cu maddəsinə əsaslanaraq iddiaçı etiraz ərizəsini Apellyasiya şurasına təqdim etmişdir.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etdi ki, **iddia edilən (**DM/098 051) boyunbağı bir neçə qiymətli daş olan zəncir şəklində, bağlama hissəsi "G" hərfini əks edir, qiymətli daş ilə "G" hərfi şəklində kulon quraşdırılması ilə yerinə yetirilmişdir.

**Qarşı qoyulan obyekt (**DM/095 429**) isə zəncir şəklində yerinə yetirilib və daxilində mərkəzdə yerləşən çox yollu (çoxguşəli) ulduzlu halqaya malikdir.**

**İddia edilən və qarşı qoyulmuş bilərziklər xüsusiyyətlərini doğuran mühüm əlamətlərinin məcmusu ilə fərqlənir.**

**"Patent haqqında" Azərbaycan Respublikası Qanunun 9-cu maddəsinin 2-ci bəndində qeyd edilmişdir ki, yeni və ya orijinal olan, sənaye nümunəsinə hüquqi mühafizə verilir.**

**9.3. Sənaye nümunəsinin estetik və erqonomik xüsusiyyətlərini doğuran mühüm əlamətlərinin məcmusu (forma, konfiqurasiya, ornament və ya rənglərin quraşması) onun ilkinlik tarixinə qədər bilgilərdən məlum deyildirsə, sənaye nümunəsi yeni hesab edilir.**

**Mövcud bilgilər məcmusuna iddia edilən sənaye nümunəsinin ilkinliyi tarixinə qədər eyni təyinatlı obyektlər və onların Azərbaycan Respublikasında tətbiqi barədə hamı üçün müyəssər olan məlumatlar aid edilir. Mövcud bilgilər məcmusuna iddia edilən sənaye nümunəsinə aidiyyəti olan və əmtəə nişanı kimi Azərbaycan Respublikasında hüquqi mühafizəsi olan obyektlər də daxil edilir.**

**9.5. Mühüm əlamətləri özünün estetik xüsusiyyətlərinə yaradıcı xarakter verən sənaye nümunəsi orijinal hesab edilir.**

**Apellyasiya şurası müəyyən etdi ki,** “MESSIKA GROUP” (FR) məxsus sənaye nümunəsi İsveçrə (CH) tərəfindən DM/098 051 nömrəsi qeydiyyat ilə bağlı obyektlər oricinal sayılmışdır, o cümlədən Avropa Birliyində (EM). Qarşı qoyulmuş “HARRY WINSTON SA.” (CH) məxsus DM/095 429 qeydiyyatının mənşə ölkəsi İsveçrədir (CH). Həmin ölkələr hesab edir ki MESSIKA GROUP” (FR) məxsus sənaye nümunəsi oricinaldır və sənaye nümunəsi meyarlarına yuğundur.

Göstərilənləri nəzərə alaraq **Apellyasiya şurası hesab edir ki** “MESSIKA GROUP” (FR) məxsus sənaye nümunəsi (DM/098 051 nömrəsi qeydiyyat) Azərbaycan Respublikasında qüvvədə qalması mümkündür.

Şərh edilənlərə əsasən, “Patent haqqında” Azərbaycan Respublikasının Qanununun 29-cu maddəsinin 6-cı bəndində, 38-ci maddəsinin 1-ci bəndənə və 9-cu maddəsinin müddəalarını rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı:

1. “MESSIKA GROUP” (FR) məxsus DM/098 051 nömrəsi altında beynəlxalq qeydiyyatına alınmış sənaye nümunəsinə (boyunbağı, bilərzik, üzük, 11-01 sinifi üzrə üzük) dair “Patent və Əmtəə Nişanları Mərkəzi” publik hüquqi şəxsin imtina haqqında 15.11.2017 il tarixli qərarına qarşı iddiaçının nümayəndəsi X.N.Məmmədova tərəfindən Apellyasiya şurasına verilmiş etiraz ərizəsi əsaslı hesab edilsin və təmin edilsin.
2. “MESSIKA GROUP” (FR) məxsus DM/098 051 nömrəsi altında beynəlxalq qeydiyyatına alınmış sənaye nümunəsinə (boyunbağı, bilərzik, üzük, 11-01 sinifi üzrə üzük) dair “Patent və Əmtəə Nişanları Mərkəzi” publik hüquqi şəxsin imtina haqqında 15.11.2017 il tarixli qərarı ləğv edilmiş sayılsın.
3. “MESSIKA GROUP” (FR) məxsus DM/098 051 nömrəsi altında beynəlxalq qeydiyyatı Azərbaycan Respublikası ərazisində qüvvədə saxlanılsın.
4. Qeyd olunanlara əsasən Beynəlxalq büroya müəyyən edilmiş qaydada məlumat göndərilsin.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

R.N.Hüseynəliyev